ədalət.- 2021.- 18 may.- S.8.

# O DÜNYANI GÖRMƏYİNCƏ, BU DÜNYADAN GETMƏK NƏDİR?..



Səbuhi Vəliyev

## Görüşümüz dünənkidir

Deməzdim ki, bu sevgidir,
Bu nədirsə, səninkidir.
Görüşümüz dünənkidir,
Sabahkına oxşamır heç.

Belədə söz də qurtarır,
Özü-özündən utanır.
Bu cığır biznən qurtarır,
Daha biznən başlamır heç.

Kölgə dolaşır üzündə,
Gecəm də bir, gündüzüm də,
Sənə yönələn izim də,
Ayağımla barışmır heç.

Başımın üstündə bəlan,
Xatirədir yoxsa qalan.
Dilindən düşməyən yalan,
Məndən heç nə soruşmur heç.

## O dünyanı görməyincə...

Dünyanın yazı, qışı da
Duası da, alqışı da,
Min gözəlin baxışı da
Bir gözəlin əlindədir.

Çox şeyi bilir yaradan
Hər sözü böyütmək nədir?
Sağa, sola boylanmadan
Öz-özünü ötmək nədir?

Gecənin bir yarısında,
Məhrəm qollar arasında
Silib yaş dolu üzünü,
İki əllə örtmək nədir?

Keçib qanından, canından
Bir nəğmənin ucbatından,
Bir qatar quşun yanından
İlim-ilim itmək nədir?

Ay üfüqdə görününcə,
Könül dinir incə - incə.
O dünyanı görməyincə,
Bu dünyadan getmək nədir?

## Bizim bulaq gecəmizdə

Çayın həzin, titrək səsi,
Necə utancaq olurmuş,
Bizim bulaq gecəmizdə.
Dağ kəlinin buynuzları
Oyun-oyuncaq olurmuş
Bizim bulaq gecəmizdə.

Dörd bir yanı süzən ağac
Bizdən çox tələsən ağac,
Əsim-əsim əsən ağac,
Sanki yarımcan olurmuş
Bizim bulaq gecəmizdə.

Yerdə, göydə lal dayanış...
Ovsunladı bizi yanlış.
Selləmə tökülən yağış
Demə yarımçıq olurmuş,
Bizim bulaq gecəmizdə.

Sürüsü yox, çobanı yox,
Buralarda yol azanın
Harayına çatanı yox.
Qaya alaçıq olurmuş
Bizim bulaq gecəmizdə.

Anlar keçdi şirin-şirin,
İtib qaldıq arasında göylə yerin.
Eh "sevirəm" deyənlərin
Sözü alaçiy olurmuş
Bizim bulaq gecəmizdə.

Ulduzmu göydən düşdü?
Bu qızmı göydən düşdü,
Duman keçdi, uzaqlara süründü
Dağ şəfəqə büründü
Dünyanın yeri göründü
Bizim bulaq gecəmizdə.

## Mənə bir söz de

Uzaqlardan bir səs gəldi,
Quş da uçdu yuvasından.
Bu səsdən qəlbi titrədi,
Əl çəkmədi ədasından.

Yalvar-yaxar etdiyimi
Yuxuda eşitsə necə?
Uzaqlardan gələn səsi
Yaxından eşitsə necə?

Səni sevdiyim anacan
Sözümü dəyişsəm necə?
Görüş yeri tapanacan,
Səninlə görüşsəm necə?

Bilirəm ki, yaran sızlar,
Hərə bir söz deyər, yozar.
Günahını, günahsızla
Tən yarı bölüşsəm necə.

## Vədə gəlib yetişəndə

Zaman yaman dolaşıqdı.
Sevməyənlər də aşiqdi
Zalımlarla barışıqdı,
Əzrayılın gələn günü.

Soruşma halın necədi,
Ulduz dolu bir gecədir.
Göyə baxan pəncərədir
Əzrayılın gələn günü.

Vədə gəlib yetişəndə
Baxmır kimsən, haralısan
Məlhəm nədi, yetmişində
Duz səpdilər yarasına
Əzrayılın gələn günü

Bir xoş saatda olaydım
Uçan qanadda olaydım.
Nola ,həyatda olaydım
Əzrayılın gələn günü.

## Gül yerinə...

Nədir gözündəki sual
Bu suala cavab gəzdin.
Bir çiynində günah yükü
Bir çiynində savab gəzdin.

Günahını gizlətməkçün
Haqq aradın,kitab gəzdin.
Bu dünyanı düzəltməkçün
Qoltuğunda şərab gəzdin.

Nədir üzündəki sual
Cavab tapmaq olmur axı.
Ölüm-itim dünyasında
Adam hər gün ölmür axı.

Bir gün güləcək gözlərin
Sənin də vaxtın bitəcək.
Məzarından gül yerinə
Elə o sual bitəcək.

## Yaylığın yellənir

Hara gedib çıxır bu tənha cığır.
İllər xəzanında gözəl qalıbdı
Bu cığır bir sevgi macərasıdır
Qoynunda dalaşan izlər qalıbdı.

O yolu, cığırı xoşlasam belə
Yalnız bir küçənin həsrətindəyəm.
Min aylı gecəni yaşasam belə
Bir aylı gecənin həsrətindəyəm.

Səni sevəcəyəm dünyalar qədər
Duanla açdığım sabaha görə.
İlahidən gələn maviliklərdə
Duanla yuduğum günaha görə.

Boşdusa, mənası yoxdu yüzün də
Hər sevgi bir addan, bir izdən gəlir.
Yaylığın yellənir dünya üzündə
Deyəsən küləyi dənizdən gəlir.

## İkimizin acığına

Geniş-geniş maviliklər
Aldı məni qucağına.
Bu dənizi yaman sevdim
Bir aşiqin acığına.

Dalğaları boy vermədi
Bu yazıq qız toy görmədi.
Daha mənə hay vermədi
Bu dənizin acığına.

Yollara dikilən gözlər
Görən indi kimi gözlər
Bu dəniz kimi əzizlər?
İkimizin acığına.

## Özündən küsə-küsə

Dünyanın işləri varmış,
Sevdiyini tez atarmış.
Mənzil başına catarmış,
Yanında bir kəs olmadı.

İlləri bomboş keçəndə
Nəsə oynadı içində,
Milyon-milyon səs içində,
Ona tanış səs olmadı.

Xəyalları düzə-düzə,
Öz-özündən küsə-küsə
Ayaq üstə gəzə-gəzə,
Dirilməyi bəs olmadı.

## Çarmıxla barış

*Jurnalistikamızın cəfakeşi hörmətli Məzahir müəllimə*

Bu dünyanın işdəkləri,
Mənə yaman tanış gəlir.
Günlər gedəndə səs-küylə,
Gələndə çox yavaş gəlir.

Hələ evini tikməmiş
Giley-güzar, təlaş gəlir.
Əlini əldən çəkməmiş
Əlbəyaxa savaş gəlir.

Ayağını daşlar əzir,
Yuxusuna qumaş gəlir.
Üstündə düşmən kölgəsi,
Elə bilir qardaş gəlir.

Ürəyini sıxma qardaş,
Adamın başına iş gəlir.
Çəkildiyin bu çarmıxla,
Son günündə barış gəlir.

## Bu dünyanın

Səs-səsə veribdi çayları,
Ayları, illəri hayladı.
Göylərə ulduzlar payladı,
Olandan-keçəndən savayı,
İzləri yox bu dünyanın.

Bizləri saxladı ovcunda,
Gah da ki,bir otun ucunda.
Yolları bağlayan ovsunda,
Bənzəri yox bu dünyanın.

Hanı yüz yaşlı əsrlər,
Dağılıb gedib qəsrlər.
Hələ kükrəyir dənizlər,
Dalğasında, qumlarında
Gözləri yox bu dünyanın.

Sahilə bir daş atdılar,
Bir gül bitdi o daş altda
Başqa yerdə,başqa adda
Xəzəri yox bu dünyanın.

## Xətrimizə dəyir axı

Hər bir kəsin öz dünyası,
Öz taleyi, öz duası.
Bizim olanın hamısı
Özümüzün deyil axı.

Artıq-əskik danışmayıb,
Öz bəxtilə savaşmayıb
Sevdiyinə yaraşmayıb,
Üzür bir qız göz yaşında,
Gəlinliyin geyir axı.

Su neyləyər ürək, könül yanğısına?
Əgər göylər ağlayıbsa,
"Sarı gəlin" mahnısına.
Niyə külək sevməyənin
Qapısını döyür axı.

Burax getsin hər öyüdü,
Düz də görürsən əyildi.
Dəyirmanın dən üyüdür?
Özünü də yeyir axı...

Heç yaxşıya tuş gəlmədin,
Çoxlarına xoş gəlmədin.
Demə ki,xoş gün görmədim.
Xətrimizə dəyir axı.

Bu nə gəliş,bu nə gediş,
Ta əvvəldən bilinməmiş.
Dərdik səni güldürməmiş.
Gülmür üzə xeyir axı.